# GƏNCLƏRDƏ VƏTƏNDAŞ İDENTİKLİYİNİN FORMALAŞDIRILMASINDA ALİ MƏKTƏB MÜƏLLİMİNİN ROLU



**Elza Mollayeva,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının dosenti,*
*pedaqoji elmlər doktoru, Qabaqcıl təhsil işçisi*
*e-mail: elzamollayeva@rambler.ru*
*https://doi.org/10.30546/2706-7858.2025.4.010*

**UOT:** 37: 378

**Xülasə**. *Məqalədə tələbələrin milli-mənəvi dəyərlər fonunda vətəndaş identikliyinin formalaşdırılmasında ali məktəb müəlliminin vəzifələri, bu problemin müasir dövrdə aktuallığını şərtləndirən amillər öz əksini tapmışdır. Vətəndaş identikliyi hər bir dövlətin sosial-siyasi cəhətdən gücünə təsir edən, bu istiqamətdə insanlarda Vətən, torpaq sevgisini daha da alovlandıran amildir. Bu mənada həm təhsilin, həm də bütövlükdə cəmiyyətin qarşısında duran başlıca vəzifələrdən biri strateji əhəmiyyətə malik vətəndaş identikliyinin yeni modelinin hazırlanmasıdır. Məqalədə qeyd edilir ki, müasir dünyada gedən güclü qloballaşma, mədəniyyətlər və sivilizasiyalar, iqtisadi sistemlər arasındakı sürətli inteqrasiya müxtəlif yaş dövrünə aid olan nəslin vətəndaş identikliyinin formalaşdırılmasını aktuallaşdırır.*

**Açar sözlər:** *vətəndaş identikliyi, milli-mənəvi dəyər, ali məktəb müəllimi, qloballaşma, təhsil prosesi.*
**Key words:** *citizen identity, national-moral values, high school teacher, globalization, educational process.*
**Ключевые слова:** *гражданская идентичность, национально-нравственные ценности, преподаватель высшей школы, глобализация, образовательный процесс.*

Sosio-mədəni müstəvidə gedən qloballaşma cəmiyyətin illərlə mövcudluğunu qoruyub saxlamaqla milli-mənəvi dəyərlərdən imtina şəraitində müasir azərbaycanlının milli identikliyinə güclü təsir göstərir. Bu təsir, eyni zamanda vətəndaş identikliyi baxımından da öz aktuallığını saxlayır. Elm qarşısında Azərbaycan gənclərində gələcəkdə güclü dövlətin qorunub saxlanılmasında həlledici rola malik olan, yeni dövrün sosial-ictimai zərbələrinə davam gətirəcək, strateji əhəmiyyətə malik vətəndaş identikliyinin yeni modelinin hazırlanması durmalıdır. Bu, yalnız ölkəmiz və xalqımız üçün deyil, həm də tarixdə öz yerini, mövcudluğunu saxlayan xalqlar üçün vacibdir. Fikrimizcə, vətəndaş identikliyinin mahiyyətini belə izah etmək olar: “Vətəndaş identikliyinin mahiyyəti nədən ibarətdir və o özündə hansı keyfiyyətləri ehtiva edir? Vətəndaş identikliyi hər hansı bir insanın müəyyən ölkə

cəmiyyətinə mənsubluğunu ifadə edir ki, burada da ümumi mədəni əsaslar dominantlıq təşkil edir. Yəni insan özünün vətəndaş kimi hansı cəmiyyətə aid olduğunu dərk edir, həmçinin həm təbii, həm də sosial mühitdə müəyyən münasibətlər sistemi əsasında fəaliyyət göstərir. Vətəndaş identikliyinin formalaşdırılmasında insanın başqalarının seçim hüququna hörməti və öz müqəddəratını sərbəst şəkildə təyin etmək hüququ başlıca amil kimi çıxış edir. Vətəndaş identikliyi hansı ölkənin vətəndaşı olmaq və bunu dərk etmək, şəxsiyyətin inkişafında mühüm amillərdən biridir" [5, s.48].

"Azərbaycanın təhsil sistemində təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi şəraitində inkişaf edən gənc nəslin cəmiyyətə sosial inteqrasiyasında onun aid olduğu xalqın, millətin identifikasiyası, milli-mədəni dəyərləri əsaslı rola malikdir. Bu məsələ, eyni zamanda vətəndaş cəmiyyətinin ümumi inkişafına, bu cəmiyyətdə vətəndaşların dövlətin mənafeyi naminə fəaliyyətinə, dövlət-xalq birliyi tendensiyasının daha da güclənməsinə təkan verən məsələ kimi qiymətləndirilə bilər" [5, s.47]. Bu amillər gənclərdə vətəndaş identikliyinin zəruriliyini və konsepsiya olaraq müasir dövrdə aktuallığını şərtləndirir. Bu baxımdan "mərkəzi fərdi xüsusiyyətlərdən birinin – sosial-mədəni, vətəndaş və şəxsi formalarını birləşdirən bir insanın vətəndaş şəxsiyyətinin formalaşması sualı ortaya çıxır" [7, s.34].

Vətəndaşın tərbiyə edilməsinin sosial əhəmiyyəti hələ antik dövrdən aktual olmuş və bu barədə ümumfəlsəfi fikirlərə qədim filosofların əsərlərində rast gəlmək olar. Vətəndaşlıq identikliyinin əsasında duran vətəndaş tərbiyəsi ideyasını ilk dəfə yunan fəlsəfə məktəbinin əsas simalarından biri olmuş Platon (b.e.ə. 427 – 347) özünün "Dövlət" əsərində vermişdir. Sonralar bu tərbiyənin məzmunca təkmilləşdirilməsini Aristotel (b.e.ə. 384–322) "Qanunlar", Evripid (b.e.ə. 480 – 406) "Finikiyalılar" əsərində geniş şərh etdilər. Aristotel öz əsərlərində qeyd edirdi ki, vətəndaşın ləyaqəti və şərəfi onun vətəndaşı olduğu dövlətin quruluşu ilə şərtlənir. Bu ideya müasir dövrümüzdə də öz aktuallığını saxlamaqdadır.

Vətəndaşlıq tərbiyəsi həm klassik, həm də çağdaş pedaqoqların əsərlərində tərbiyənin ana xətti kimi dəyərləndirilir. XX əsrin 60-cı illərində Qabriel Almond və Sidney Verba özlərinin "Vətəndaşlıq mədəniyyəti" əsərində vətəndaşın tərbiyə edilməsini onun sosial vəzifələrinin onların həyata keçirilməsində əməli fəaliyyətinin dərk olunması kontekstində araşdırdılar [9].

Çağdaş pedaqogikamızın tanınmış simalarından olan professor Ə.Ağayev şəxsiyyətin vətəndaş kimi formalaşdırılmasında ona, ilk növbədə, vətəndaşlıq məziyyətlərinin, yəni vətəndaşlıq ləyaqətinin, vətəndaşlıq vüqarının, dəyanətinin, dövlətçilik ruhunun aşılanmasını önə çəkmişdir [2]. Professor M.İlyasov vətəndaş yetişdirməyin əhəmiyyətini belə ifadə etmişdir: "vətəndaş yetişdirmək Azərbaycan təhsilinin prioritet məqsədlərindən biri, təhsilimizin yol xəritəsi, strateji hədəfi, gənc nəslin vətəndaş təhsili mənbəyidir" [3, s.89]. M.İsmixanov isə fəal vətəndaşın keyfiyyətlərini belə təsnif etmişdir: "o, öz hüquqlarını bilməli, başqalarının hüquqlarına hörmət etməli, təşəbbüskar olmalı, cəmiyyət qarşısında məsuliyyət daşımalı, mülkiyyətə qayğıkeş münasibət bəsləməli, cəmiyyətə və insanların rifahına zərər vura biləcək fikir və fəaliyyətə qarşı çıxmalıdır və s." [4, s.56]. Müasir dünyada gedən güclü qloballaşma, mədəniyyətlər və sivilizasiyalar, iqtisadi sistemlər arasındakı sürətli inteqrasiya müxtəlif yaş dövrünə aid olan nəslin vətəndaş identikliyinin formalaşdırılmasını aktuallaşdırır. Bu, ölkənin sosial-siyasi proseslərində fəal iştirakı ilə seçilən gənclərin müxtəlif lokal xarakterli layihələrdə özünü reallaşdırmasında və onların bu proseslərin subyektinə çevrilməsində özünü büruzə verir. Bunun bariz nümunəsi kimi, 2020-ci ilin payızında başlayan 44 günlük Vətən müharibəsini göstərə bilərik. Bir məsələni də qeyd etmək yerinə düşər ki, gənclərin cəmiyyətdə gedən sürətli quruculuq işlərində vətəndaş mövqeyindən fəal iştirakı yalnız onların özlərinin arzu və istəklərinə, idarəetmə resurslarına deyil, eyni zamanda elmi əsaslara istinad edən dövlət dəstəyinə əsaslanmalıdır. Onu da qeyd edim ki, "vətəndaş identikliyi hər bir insanın müəyyən dövlətin vətəndaş cəmiyyətinə mənsubluğunu dərk etməsində özünü büruzə verir. Burada yalnız milli mənsubiyyət deyil, eyni zamanda yaşadığımız ölkəyə münasibətimiz də nəzərə alınmalıdır.

Tarixi zərurətdir ki, müxtəlif etnik qruplar müəyyən bir dövlətin tərkibində dominant (yəni həmin dövlətin aparıcı etnosu-xalqı) xalq ilə çiyin-çiyinə yaşayıb özlərini bu ölkənin vətəndaşı kimi hiss edirlər. Bu zaman milli mənsubiyyət ilə yaşadığı ölkəyə məhəbbət, həmin ölkədə yaşayan digər etnosların multikultural dəyərlərinə tolerant münasibət vətəndaş identikliyinin formalaşdırılmasında əsas qayə kimi çıxış edir" [5, s.48].

Aparılan tədqiqatlar (A.Q.Asmolov, E.V.Bondarevskaya, O.A.Koryakovseva, T.B.Buqayçuk, A.Gabriel, V.Sidney və başqaları) onu deməyə əsas verir ki, gənclərdə vətəndaş identikliyinin lazımi səviyyədə formalaşması gənclərlə iş aparan pedaqoji kadrların məqsədyönlü fəaliyyətindən, akademik, didaktik qabiliyyətindən və sosial-iradi keyfiyyətlərindən asılıdır. Bu istiqamətdə ali məktəblərdə əsas məsuliyyət orada tədrisi həyata keçirən ali məktəb müəlliminin üzərinə düşür. Belə ki, ali məktəb müəllimi ali təhsil sistemində təlim-tərbiyə prosesinin mərkəzində duran, yüksək elmi dünyagörüşünə, peşə keyfiyyətlərinə malik əsas subyektdir. Vətəndaş identikliyinin aşılanması və gənclər tərəfindən onun mənimsənilməsi bu prosesi ali məktəb müəlliminin nə dərəcədə elmi əsaslarla, pedaqoji cəhətdən düzgün qurmasından asılıdır. Deməli, pedaqoji kadrların hər il ixtisasartırma kurslarından keçməsi zamanı onlarla vətəndaş identikliyi ilə bağlı söhbətlərin aparılması, onun mahiyyətinin elmi şəkildə onlara çatdırılması prioritet vəzifələrdən biri olmalıdır. Bu mənada müəllimlərlə ixtisasartırma kurslarında aşağıdakı istiqamətdə işlərin aparılması məqsədəuyğundur:

– *müəllimlərin şəxsiyyətin vətəndaş identikliyinin funksiyaları, məzmun və quruluşu haqqında biliklər sisteminə yiyələnməsi;*

– *tələbə gənclərdə vətəndaş identikliyinin formalaşdırılmasının qanunauyğunluqlarının bu prosesə təsir edən amillərin düzgün qiymətləndirilməsi;*

– *gənclərdə vətəndaş identikliyinin formalaşdırılmasında təlim prosesinin və nizam-intizamının əhəmiyyətli rolunun dərk edilməsi.*

Müasir ali məktəb müəlliminin vətəndaş identikliyi özünün qiymətləndirməsi baxımından "ideal vətəndaş" statusuna daha çox uyğun gəlir. Aparılan tədqiqatlar onu deməyə əsas verir ki, ali məktəb müəllimlərinin tələbələrdə "tipik vətəndaş" haqqındakı təsəvvürləri ideal vətəndaşla bağlı təsəvvürlərindən geri qalır. Beləliklə də, "universitet müəllimləri arasında formalaşan gənclik imici onun sivil prizmasından ideal vətəndaşdan uzaq və tipik vətəndaşa yaxındır. Belə keyfiyyətlərə görə "ölkənin taleyi üçün məsuliyyət daşımaq", "öz hərəkətlərinə görə məsuliyyət daşımaq" kimi müəllimin rəyində tələbə ilə bağlı adi vətəndaşdan daha aşağı nəticə əldə edilir" [8, s.156].

Ali məktəb müəllimləri özünüqiymətləndirmələrində özlərini "tipik vətəndaş"dan daha çox "ideal vətəndaş"a aid edirlər, yəni müəllimlərdə vətəndaş identikliyinin səviyyəsi tələbələrin səviyyəsinə nisbətən yüksək qəbul edilir. Hətta bir çox müəllimlər vətəndaş identikliyinin gələcək perspektivləri haqqında düşünmürlər. Belə ki, onlara görə əsl vətəndaş üçün lazım olan keyfiyyətlər onlarda maksimal səviyyədədir. Tədqiqatçıların fikrinə görə, müəllimin özü və tələbələr haqqında fikirləri arasında əlaqə maraqlıdır. Demək olar ki, bütün vətəndaşların inkişaf səviyyəsinə görə müəllim tələbəni özündən aşağı qoyur, burada yalnız iki keyfiyyət: "ictimai həyatda iştirak etmək istəyi" və "ölkənin ictimai-siyasi həyatında iştirak etmək arzusu" müəllimin fikirlərində tələbə ilə praktiki olaraq üst-üstə düşür. Universitet müəlliminin müasir gənclik ilə bağlı fikirlərinin təhlilini davam etdirərək, qeyd etmək lazımdır ki, müəllim müasir gəncliyin vətəndaşlıq aspektində keyfiyyətlərinin inkişafı perspektivini görmür"[8, s.154-155].

Ali məktəb sferasında vətəndaş identikliyinin səviyyəsini tədqiq etmək üçün Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin müəllimlərinə "Vətəndaş cəmiyyətinin və gənclərdə vətəndaş identikliyinin formalaşmasında üstünlüyü hansı amilə verirsiniz?" sualı ilə müraciət etdik. Sorğuda fakültənin 70 nəfər müəllimi iştirak etdi və onun nəticələrinə görə, bu sahədə birinci yerdə təhsil sistemi, ikinci yerdə ailə, üçüncü yerdə dövlət orqanları və təşkilatları, dördüncü yerdə sosial institutlar, beşinci yerdə isə kütləvi informasiya vasitələri (KİV) qərarlaşmışdır. Ali məktəb sferasında tələbə gənclərdə vətəndaş identikliyinin formalaşdırılmasında həm təlim prosesi, həm də auditori-

yadankənar tədbirlər əhəmiyyətli rola malikdir. Hər iki müstəvidə ali məktəb müəlliminin dominant rolu danılmazdır. Müəllim şəxsiyyəti vətənpərvərliyi, yurd sevgisi, millət təəssübkeşliyi ilə gənclərə mənəvi örnək olmalıdır. Xüsusilə, ictimai və humanitar fənlərin tədrisində bu problemin həlli üçün münbit şərait yaranır. Məsələn, tarix, fəlsəfə, pedaqogika kimi fənlər bütün fakültələrdə tədris edildiyi üçün onların vətəndaş identikliyi baxımından imkan və yollarından istifadə etmək yerinə düşərdi.

Vətəndaş identikliyinin formalaşdırılmasında pedaqogika fənninin və onu tədris edən ali məktəb müəlliminin qarşısında geniş imkanlar açılır. Pedaqogikada təlim, tərbiyə, məktəbşünaslıqla bağlı bütün mövzuların tədrisində vətəndaşlıq və milli identikliyi, milli özünüdərki əsas amil olaraq götürən müəllim, onun normativ-hüquqi bazasını xüsusilə qeyd etməlidir. Belə ki, bu bazaya daxil olan Konstitusiyası, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu vətəndaş və dövlət arasındakı qanunla tənzimlənən münasibətləri özündə ehtiva edir. Bu normativ-hüquqi sənədlərin sosial-siyasi-hüquqi mahiyyəti müəllim tərəfindən düzgün izah edilməlidir. O, tələbələrə çatdırmalıdır ki, milli identiklik olmadan vətəndaş identikliyindən danışmağa dəyməz və milli özünüdərk təlim-tərbiyə prosesinin əsas komponenti kimi qəbul edilir. Bunu 2009-cu ildə Azərbaycanda qəbul edilmiş "Təhsil haqqında" Qanunda da aydın görmək olar və Qanunun 4-cü maddəsindəki məqsədlər vətəndaş identikliyi baxımından əhəmiyyətlidir:

*4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;*

*4.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabətqabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq"[1].*

**Nəticə.** Son olaraq onu da qeyd edək ki, gənclərdə vətəndaş identikliyinin formalaşdırılmasında müəllimin özünün vətəndaş kimi şəxsi keyfiyyətləri, tədrisi problem baxımından məqsədyönlü təşkil etmək bacarığı, universitetdə tədris prosesinin keyfiyyəti, güclü pedaqoji və vətəndaş cəmiyyətinin təşkili böyük rola malikdir. Vətəndaş identikliyinin sistemli formalaşmasında gənclərin geniş və elmi dünyagörüşə, yüksək intellektə malik olması, ali məktəblərdə qabaqcıl texnologiyaların tətbiqi, ali məktəb müəllimlərinin tərbiyə sahəsində (vətəndaş identikliyi baxımından) yüksək peşəkarlığa, pedaqoji ustalığa, peşə kompetensiyalarına malik olması günün tələbidir.

***Məqalənin aktuallığı.*** Məqalə ali məktəb tələbələrində vətəndaş identikliyinin formalaşdırılmasının imkan və vasitələri baxımından aktualdır.

***Məqalənin elmi yeniliyi.*** Məqalədə tələbə gənclərdə vətəndaşlıq identikliyinin formalaşdırılmasının sosial-pedaqoji əhəmiyyəti, təlim-tərbiyə prosesində onların vətəndaş kimi formalaşdırılmasının imkan və yolları geniş tədqiq edilmişdir. İlk dəfə olaraq tələbə gənclərin vətəndaş kimi yetişdirilməsində vətəndaş identikliyinin dominantlığı, bu barədə klassik mütəfəkkirlərin ideyaları, nəzəriyyələr təhlil edilmiş və ali məktəb müəlliminin bu prosesdə rolu verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə verilmiş ideyalar ali təhsil müəssisələrində fəaliyyət göstərən müəllimlər tərəfindən tələbələrdə vətəndaş identikliyinin formalaşdırılması baxımından əhəmiyyətlidir. Həm müəllimlər, həm də valideynlər gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması, əsl vətəndaş kimi tərbiyə edilməsində ortaya çıxan problemlərin həllində bu məqalədən istifadə edə bilərlər.

## İstifadə edilmiş ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Ağayev Ə.Ə. Seçilmiş pedaqoji əsərlər (2 cilddə). cild 1, Bakı, "Mütərcim" nəşriyyatı, 2011.
3. İlyasov M. Müasir təhsil: Ənənədən innovasiyaya. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2021.
4. İsmixanov M.A., Vəliyeva S.V. Sosial pedaqogika. Bakı, 2013.
5. Mollayeva E. Məktəbəqədər və kiçik mək-

təbyaşı dövründə vətəndaş identikliyinin formalaşdırılmasının elmi-pedaqoji əsasları. “Məktəbəqədər və ibtidai təhsil” jurnalı, Bakı, 2023, № 1/242, s.18-30.

6. Асмолов, А.Г. Психология личности: культурно-историческое понимание развития человека. Москва, Смысл: Издательский центр «Академия», 2007.

7. Бондаревская Е.В. Ценностные основания личностноориентированного воспитания. Журнал “Педагогика”, 2005, №2, с.29-36.

8. Коряковцева О.А., Бугайчук Т.В. Гражданская идентичность преподавателей вуза и их представление о студенте-гражданине. Ярославский педагогический вестник, 2014, №3, Том II (Психолого-педагогические науки).

9. Almond G.A. Verba S. The civic culture: political attitudes and democracy in five nations. SAGE Publications, 1989, 379 p.

**E.Mollayeva**

## The role of a high institution teacher in the formation of civic identity of the young

**Abstract**

The article reflects the tasks of a higher education teacher in the formation of civic identity of students against the background of national and spiritual values, the factors that determine the relevance of this problem in modern times. Civic identity is a factor that affects the socio-political strength of each state, and in this direction further ignites love for the homeland and land in people. In this sense, one of the main tasks facing both education and society as a whole is the development of a new model of civic identity of strategic importance. The article notes that the strong globalization taking place in the modern world, the rapid integration between cultures and civilizations, and economic systems, make the formation of civic identity of generations belonging to different age groups relevant.

**Э.Моллаева**

## Роль преподавателя вуза в формировании гражданской идентичности молодежи

**Аннотация**

В статье отражены обязанности преподавателя высшей школы по формированию гражданской идентичности студентов на фоне национально-духовных ценностей, а также факторы, определяющие актуальность этой проблемы в современности. Гражданская идентичность является фактором, влияющим на социально-политическую мощь каждого государства, и в этой связи еще больше разжигает любовь людей к своей родине и земле. В этом смысле одной из главных задач, стоящих как перед образованием, так и перед обществом в целом, является разработка новой модели гражданской идентичности, имеющей стратегическое значение. В статье отмечается, что мощная глобализация, быстрая интеграция культур и цивилизаций, экономических систем в современном мире делают актуальным формирование гражданской идентичности поколений разных возрастов.